**Mehriban Jalə**

# MÖCÜZƏ

QANUN NƏŞRİYYATI

**Mehriban Jalə. Möcüzə**
Bakı, Qanun Nəşriyyatı, 2026, 120 səh.

Ölçü: 120x185 mm
Cild: yumşaq
Çapa imzalandı: 23.07.2026

Mətn dizaynı: Vüqar Nağıyev
Qapaq dizaynı: Rövşən Abbas

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-15-088-9

© Qanun Nəşriyyatı, 2026
© Mehriban Jalə, 2026

Kitab müəllif tərəfindən redaktə və
korrektə edilərək nəşriyyata təqdim olunub.
Redaktə, korrektə və məzmun məsələlərinə
görə müəllif məsuliyyət daşıyır.

*Bir şeyə baxmaq üçün baxanda yox, görmək üçün baxanda görürsünüz…*

*Bəlkə də, "həyatda hər şey mümkündür, heç nə imkansız deyildir" deyən insanlar hələ həyatın əsl imkansızlıqları ilə qarşılaşmayıblar. Təəssüf ki, biz insanlar istədiyimiz hər şeyi edə biləcək gücə sahib olduğumuzu düşünür və bu yolda özümüzü hədər edirik.*

*Lakin həyatda "imkansız" anlayışı da vardır. Buna bir misal göstərmək istərdim. İtirdiyin yaxınının simasını, səsini zaman keçdikcə, istəməsən də, unudursan. Uzun müddət bunları xatırlamaq mümkün deyil. Bəlkə də, "mən heç vaxt unutmaram" deyəcəksiniz, amma bu, insanın idarə edə bilməyəcəyi bir imkansızlıqdır. Qucaqlamaq istədiyində qucaqlaya bilməyəcək, onun sənin yaşadıqlarına necə reaksiya verəcəyini əsla bilməyəcəksən. Hər şeyin mümkün olduğunu düşündüyümüz bu dünyada imkansızlıq bəzən gözlə görülə bilməyən səbəblərə görə baş verər…*

# 1-ci hissə

*“Xəyal etdiyin şeyi gerçəkləşdirə bilməməkdən deyil, gerçəkləşdirə biləcəyin şeyi xəyal etməməkdən qorx.”*

*Mehriban Jalə*

Hər zaman insanlardan "zamansız gələn gözəlliklərə ehtiyacımız var" ifadəsini eşitmişik. Lakin mən zamansız gələn gözəlliklər kimi zaman alan gözəlliklərə də ehtiyacımız olduğunu deyirəm. Təbii ki, heç gözləmədiyimiz anda alınan xoş xəbərlər və ya həyatımıza girib bizə yaxşı təəssürat bəxş edən insanlar sevinməyimizə səbəb olacaq. Ancaq mən illərlə üstündə çox çalışdığımız arzumuzun reallaşmasını görməyin bizləri daha çox sevindirəcək hal olduğunu düşünürəm. Eyniylə mənim bu gün sevindiyim kimi.

Hər zaman uşaqları sevən və onların daim xoşbəxt, sağlam olmasını istəyən biri olmuşam. Uşaqlara olan sevgim məni uşaq həkimi olmağa təşviq etdi. İllərdir, bu arzumu həyata keçirmək üçün gecə-gündüz heç yorulmadan çalışıram. Bir gün çəkilən əziyyətlərin yerdə qalmayacağına əmin idim. Mənə görə, bir şeyi çox istədikdən və olması üçün çox çabaladıqdan sonra onun olmama kimi bir şansı yoxdur. Eyni zamanda istəyimizi xəyal etmək də onun həyata keçməsi üçün atdığımız ən önəmli addımlardan biridir. Mən xəyalpərəst insan deyiləm. Ancaq arzumuzu xəyal edərkən, onun reallaşdığını gözlərimizin önünə gətirərkən keçirəcəyimiz qürur və sevinc hissinin bizə görəcəyimiz işə başlamaq üçün stimul verəcəyinə inanıram.

Bu gün mənim həyatımda ən xoşbəxt olduğum gündür. Nəhayət ki, illərlə xəyalını qurduğum klinikada

pediatr olaraq çalışacağam. Uzun müddətdən sonra ilk dəfə bu qədər sevinirəm. Sevincli, bir o qədər də həyəcanlıyam. Heç bilmədiyim mühitdə, heç tanımadığım insanlarla birgə çalışmağın məni bir az qorxutmadığını desəm, yalan demiş olaram.

– Sabahın xeyir, mənim gözəl qızım.

– Sabahın xeyir, anacan. Bu saatda niyə yatmamısan?

– Sənin ilk iş günündə mənim gözümə yuxu girər heç? Amma atan yatıb.

İkimiz də güldük.

– Həyəcanlısan?

– Bir az. Ancaq xoşbəxtlik hissim həyəcanımdan daha çoxdur.

– Elə də olmalıdır. Bu sənin ən böyük arzun idi. Uşaqlığından bəri "mən uşaq həkimi olacam" dedin, başqa heç nə demədin.

– Və dediyim sözün üstündə durdum, həkim oldum.

– Buna heç vaxt şübhəm olmadı. Bilirdim ki, mənim Möcüzəmin istədikdən sonra edə bilməyəcəyi heç nə yoxdur. Yolun hər zaman açıq, uğurların davamlı olsun, gözəl qızım.

– Səni çox sevirəm, anacan.

Bir-birimizi möhkəm-möhkəm qucaqladıq və mən evdən çıxdım. İş yerim evdən bir saatlıq məsafədə yerləşirdi. Qulaqlıqda məni müşayiət edən "Secret Garden"la birlikdə yolboyu ancaq keçmişimi, o balaca

qızın böyüyüb nələrə nail olduğunu və nail olmağa davam edəcəyini düşündüm.

Uşaqlıq illərimi çox şən, əsl uşaq kimi yaşamışam. Nə istəmişəmsə, anam da, atam da hər zaman istəyimi yerinə yetiriblər. Lakin bütün bunlara rəğmən həmişə içimdə bir boşluq hissinin olduğunu hiss etmişəm. Ancaq bunu heç vaxt ailəmə onların pis olmasını istəmədiyim üçün bildirməmişəm. Bir dəfə çox yaxşı xatırlayıram, beş yaşım olardı, həyətdə oynayarkən yıxılıb dizimi əzmişdim. Bunu görən anam sanki öz dizi əzilibmiş kimi ağlamağa başladı və cəld şəkildə qanayan yaramı sağaltmağa çalışdı. O vaxt uşaq idim, anlamırdım. Lakin böyüdükdən sonra anladım. Anladım ki, bəzən insan öz canından, qanından olmayan uşağı hər şeydən çox sevə, onun ağrısını hiss edə bilərmiş. Dünyaya uşaq gətirmədən də valideyn olmaq mümkünmüş. Bəli, mən hazırda “ana” və “ata” dediyim insanların öz övladları deyiləm. Kimin doğma övladıyam, onu da bilmirəm. Bildiyim tək şey, əgər bu insanlar olmasaydı, mən də həyatda olmayacaqdım. Onlar zibil qutusuna atılmış, heç nədən xəbəri olmayan, dünyaya gözlərini yeni açmış körpəni xilas etməklə edə biləcəkləri ən böyük yaxşılığı etdilər mənim üçün. Adımın Möcüzə qoyulmasının səbəbi də illərdir övladları olmayan bu ailənin həyatına günlərin bir günü möcüzə kimi gəlməyim oldu. Heç

gözləmədikləri vaxtda, ummadıqları bir anda. Mən onların, onlar da mənim möcüzəm oldular.

Öz doğma valideynlərimə gəldikdə isə, artıq onların kim olduqları və məni niyə istəmədikləri maraqlı deyil mənim üçün. Uşaq olanda ailəmə bildirmədən için-için ağlayırdım. Kiçik bir körpənin nə günahı ola bilər ki, öz doğma ailəsi onu zibilə atsın? Bəlkə də, o yaşlarımda onları tanımaq, beynimdə cavabsız qalan sualların cavabını öyrənmək istərdim. Lakin artıq istəmirəm. Çünki mən böyüdüm. Hər şeyə rağmən həyatda qaldım. Onlar məni sevməsələr də, məni sevən bir ailəm oldu və o ailəm sayəsində bir vaxt hər şeyə görə, hətta zibilliyə atılmağıma görə özümü günahlandırmaq vərdişimdən qurtuldum. Asan olmadı, amma biz bunu birlikdə bacardıq. Çünki ailəm bir uşağın həm mənən, həm də cismən sağlamlığının qorunmalı olduğunu biləcək qədər məlumatlı idilər…

Mənim yerimə başqa birisi olsaydı, onu atan valideynlərinə qarşı içində nifrət hissi bəsləyərdi. Ancaq mənim içimdə onlar üçün saxladığım kin, nifrət yoxdur. Bu hisslərin onlara yox, mənə zərər verəcəyini bilirəm. Mənə etdikləri pisliyə rağmən mən onları bağışladım. Bağışladım ki, həyatımı çiyinlərimdə özümdən qat-qat ağır yükü daşımaq məcburiyyətində qalmadan rahat, xoşbəxt şəkildə yaşaya bilim…